İqtisadiyyat .-2019.- 18-24 iyul.- S.6.



# Doğma Buzovnadan uzaq Qvadalaxaraya aparan yol



Aprelin 25-27-də İspaniyanin Qvadalaxara şəhərində Kempo üzrə 16-cı Dünya Çempionatı keçirilib. Nüfuzlu yarışlarda ölkəmizi Beynəlxalq Kempo Federasiyasının Azərbaycandakı nümayəndəsi Rauf İbrahimovun başçılığı ilə yığma komandamız təmsil edib. Çempionatda nokdaun versiyası üzrə kişilər arasında Buzovna Boz Oğuz İK-nın yetirməsi, Azərbaycan Kempo yığma komandasının üzvü, Respublika və Beynəlxalq yarışların qalibi Eynulla Qafarov (şəxsi məşqçi İlham Ağaverdiyev) birinci yeri tutub. O, həmçinin Kemponun Submişen versiyasında 2-ci yerə layiq görülüb. Qeyd edək ki, ümumilikdə, turnirdə 67 ölkədən 1300-ə yaxın idmançı mübarizə aparıb.

AZƏRTAC-ın verdiyi bu qısa, ancaq çox qürurverici, sevindirici məlumatı aprel ayının sonunda izlədik.Bugün isə qəhrəmanımız Eynulla Qafarov ilə görüşüb söhbət etdik. Özü haqqında çox qısa danışdı...



Eynulla Həsənağa oğlu Qafarov. 1992-ci il avqustun 20-də Bakı şəhərinin Buzovna qəsəbəsində anadan olub. 125 saylı orta məktəbdə oxuyub, sonra isə - 2008-ci ilə qədər Respublika Olimpiya İdman Liseyində (ROİL) təhsilini davam etdirib. 2010-2011-ci illərdə hərbi xidmətdə olub. Həyatında ən mühüm hadisə bu il İspaniyada keçirilən yarışlarda qalib olmasıdır. Bu qələbədə məşqçisi İlham Ağaverdiyevə borclu olduğunu deyir.

AZƏRTAC-ın həmin günlər (30 aprel 2019-cu il) yaydığı xəbərlərdə bir sətir var - Eynulla Qafarov (şəxsi məşqçi İlham Ağaverdiyev) birinci yeri tutub. Bu qədər qısa, amma nə qədər xoş...



Biz Eynullanın məşqçisi İlham Ağaverdiyev ilə də redaksiyada görüşdük. İlham Ənvər oğlu Ağaverdiyev. 1966-cı il noyabrın 6-da Bakı şəhərinin Buzovna qəsəbəsində anadan olub. 1974-84-cü illərdə Buzovna qəsəbəsi 125 saylı orta məktəbi bitirdikdən sonra 1984-1992-ci illərdə Ç.İldırım adına Azərbaycan Dövlət Politexnik İnstitutunda təhsil alıb. 1992-ci ildə Azərbaycan Respublikasının Milli Qvardiyasında işləyib, Dağlıq Qarabağ uğrunda döyüşlərdə iştirak edib. Müharibə veteranıdır. 1975-ci ildən sambo, 1982-ci ildən karate, 1998-ci ildən ciu-citsu ilə məşğul olur. 1988-ci ildən sambo üzrə SSRİ idman ustasıdır, karate üzrə II dan və ciu-citsu üzrə 4-cü dan qara kəmər sahibidir. 1998-ci ildən Təhsil Nazirliyinin Uşaq, gənclər və idman məktəbində məşqçi-müəllim işləyir. 2000-ci ildə "Boz Oğuz" Ciu-Citsu Fərdi İdman Klubunu təsis edib. 2015-ci ildə Kempo (karate) üzrə Antalyada 12-ci Dünya çempionatında Seni Kempo üzrə veteranlar arasında 3-cü yeri, daha sonra Macarıstanda keçirilən yarışlarda 2-ci və 3-cü yerləri tutub.

2018-ci ildə əməkdar məşqçi adına layiq görülüb.

Tələbəsinin qələbəsinə sevinən müəllim özündən çox tələbəsindən danışdı. Eynulla 9 yaşından İlham müəllimin yanındadır. 2002-ci ildə 10 yaşı olanda respublika çempionatının qalibi olub, dəfələrlə çempionatlarda qaliblər sırasına yüksəlib. 2019-cu ildə İspaniyanın Qvadalaxara şəhərində keçirilən Dünya çempionatı isə Eynulla üçün çox uğurlu olub. O, nokdaun üzrə 1-ci, Kemponun Submişen versiyasında isə 2-ci yerə layiq görülüb.İlham müəllim Eynulla ilə nəinki özünün, bütün Buzovna əhalisinin qürur duyduğunu söylədi.

Gənclik arzuların gerçəkləşdirilməsi yolunda dayanmadan və yorulmadan mübarizə aparmaq deməkdir! Eynulla hələ gəncdir, qarşıda onu yeni yarışlar, yeni qələbələr gözləyir. Eynullaya bu qələbələrə gedən yolda uğurlar diləyirik.

**Yeganə Məmmədova**